# صيام يوم عاشوراء

# AŞURA ORUCU


## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية




Tərcümə edən: İlqar Eyvazoğlu

ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسْمِ ٱللَّهِ ٱلرَّحْمَٰنِ ٱلرَّحِيمِ

# AŞURA ORUCU

Aşura günü, Allahın ﷻ Musa (Allahın ona salamı olsun) və onun qövmünü xilas etdiyi, Fironu və əsgərlərini suda batırdığı gündür.

Peyğəmbər ﷺ Musaya olan sevgi və qardaşlıq hissi ilə və eləcə də bəlanın aradan qalxıb, qələbə çaldığına görə Allaha ﷻ şükür etmək üçün o günü oruc tutdu.

Hədisdə gəlib ki, Peyğəmbər ﷺ buyurur:

«Allaha ümid edirəm ki, aşura orucu bir il keçmiş günahlara kəffarədir».[1]

Yəhudilərə xilaf olmaq üçün, onunla birlikdə doqquzuncu günü də oruc tutmaq müstəhəbdir.

Bu gündə bəzi bidət əhlinin, Hüseyn bin Əlinin (Allah ﷻ onların hər ikisindən razı olsun) öldürülməsinə görə bu günü matəm edib, fəryad edib özlərinə işgəncə etməkləri düzgün deyil.

Hüseynin (Allah ﷻ onların hər ikisindən razı olsun) vəfatına görə kədərimiz bu cür işlərlə deyil, müsibətlərə səbr etmək, savabın Allahdan ﷻ istəmək və Allahın ﷻ hökmü ilə razı qalmaqla olmalıdır.

[1] Muslim, 1976

Aşura ruhlara ümid və xeyirli düşüncə gətirir.

Eləcə də qələbənin yaxınlaşması və sıxıntının aradan qaldırılması ilə mənəviyyatı yüksəldir.

Çünki bu gündə Allah ﷻ öz dostlarını və mömin qullarını xilas edib və zalımları bir müddət sonra olsa belə məhv edib.

Necə ki Allah ﷻ , Musanı (Allahın ona salamı olsun) xilas etdi, Fironu isə suda batırdı.

Allah ﷻ buyurur:

قال تعالى: ﴿وَلَقَدۡ نَجَّيۡنَا بَنِيٓ إِسۡرَٰٓءِيلَ مِنَ ٱلۡعَذَابِ ٱلۡمُهِينِ ٣٠ مِن فِرۡعَوۡنَۚ إِنَّهُۥ كَانَ عَالِيٗا مِّنَ ٱلۡمُسۡرِفِينَ ٣١﴾ [الدُّخَان : ٣٠ - ٣١]

“Artıq İsrail oğullarını alçaldıcı əzabdan qurtardıq – Firondan. Həqiqətən, o, özünü yüksək tutan və həddi aşanlardan idi”.[2]

---

[2] əd-Duxan surəsi, 30-31-ci ayə